# XARİCİ ÖLKƏLƏRİN GÖMRÜK ORQANLARININ KİNOLOJİ XİDMƏTLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

Dövlət Gömrük Komitəsinin digər dövlətlərin gömrük orqanları ilə imzaladığı əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər çərçivəsində Kinoloji Mərkəzin bazasında bir çox dövlətlərin gömrük orqanlarının kinoloji əməkdaşlarına təlim kursları keçirilmiş və narkotik vasitələrin axtarışı üzrə təlim keçmiş axtarış itləri onlara əvəzsiz olaraq hədiyyə edilmişdir.

2006-cı ildə Bolqarıstan Respublikasının gömrük orqanlarının kinoloji xidmətinə Mərkəz tərəfindən narkotik vasitələrin axtarışı üzrə 2 baş, 2007-ci ildə Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyinin kinoloji xidmətinə 2 baş, 2008-ci ildə Moldova Respublikasının gömrük orqanlarının kinoloji xidmətinə 2 baş, 2010-cu ildə Gürcüstan Respublikasının gömrük orqanlarının kinoloji xidmətinə 2 baş, Makedoniya Respublikasının gömrük orqanlarına 2 baş, 2011-ci ildə Mərkəzin bazasında xidməti itlərin təlimi üzrə ixtisasartırma kursları keçmiş Monqolustan Respublikasının gömrük xidmətinin kinoloji qurumuna 2 baş, 2012-ci ildə Makedoniya gömrük xidmətinə 2 baş, Qırğızıstan Respublikasının kinoloji xidmətinə 2 baş, Monqolustan Respublikasının Baş Gömrük İdarəsinin Kinoloji bölməsinə Monqol Gömrüyünün yaranmasının yüzilliyi münasibətilə 2 baş, 2013-cü ildə Əfqanıstan Dövlət Gömrük Departamentinə 2 baş, Toqo Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyinin Baş Gömrük İdarəsinə 2 baş, 2014-cü ildə Monqolustan Respublikası Gömrük xidmətinə 2 baş, Toqo Respublikasının Baş Gömrük İdarəsinin kinoloji xidmətinə 2 baş, 2015-ci ilin yanvar ayında Türkiyə Gömrük və Ticarət Nazirliyinə 2 baş, 2016-cı ilin fevral ayında Gürcüstan Gəlirlər Xidmətinin Gömrük İdarəsinə 2 baş və həmin ilin oktyabr ayında isə Seneqal Respublikası Baş Gömrük İdarəsinə narkotik vasitələrin axtarışı üzrə 2 baş xidməti it təhvil verilmişdir.

Kinoloji Mərkəzin bazasında Türkiyə, Gürcüstan, Makedoniya, Monqolustan və Seneqal gömrük xidmətinin kinoloqları üçün təlim kursları keçirilmişdir.



***Türkiyə Respublikası Gömrük xidmətinin kinoloji qurumuna xidməti itlər ianə edilərkən***




***Rusiya Federal Gömrük Xidmətinin Kinoloji Mərkəzi***



*Makedoniya gömrük xidmətinə axtarış iti ianə edilərkən*



*Əfqanıstan Respublikasının gömrük qurumuna axtarış iti verilərkən*




*Moldova gömrük xidmətinin kinoloji qurumu*



*Toqo Respublikasının gömrük idarəsinin kinoloji qurumu*



***Monqol Gömrüyünün yaranmasının yüzilliyi ilə bağlı***



***Almaniya gömrük xidməti***



***Macarıstan gömrük xidməti***